# Abşeron: Tərəqqi və abadlıq daha yüksək mərhələyə qədəm qoyur



❒ ***Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla davam etdirilən sosial-iqtisadi inkişaf böyük və rentabelli rayonlarımızdan olan Abşerondan da yan keçməyib. Ölkəmizin müstəqillik illərində əldə etdiyi nailiyyətlər həm sənaye, həm də kənd təsərrüfatı potensialına malik olan Abşeronun həyatına da ciddi təsir edib, onun qəsəbə və kəndlərinin, eyni zamanda, mərkəzi şəhəri Xırdalanın simasının köklü şəkildə müasirləşməsinə, gözəlləşməsinə səbəb olub. Bu gün Azərbaycanın paytaxtında gördüyümüz müasirləşmə tendensiyasını, abadlıq-quruculuq işlərini, təkcə sosial-iqtisadi deyil, həm də mədəni-mənəvi tərəqqini Bakının qonşuluğundakı Abşeronda da müşahidə etmək olur. Məgər son illərdə Xırdalan şəhərində, Masazır və digər qəsəbələrdə aparılan tikinti işləri Bakıdan geri qalırmı? Əsla yox.***

Zənnimizcə, Abşeronun nə qədər böyük sürətlə inkişaf etdiyini təkcə son illərdə burada ucaldılmış çoxmərtəbəli yaşayış binalarından, bütöv yaşayış komplekslərindən, həyata keçirilən infrastruktur layihələrindən aydın görmək olar. Ölkə başçısının qayğı və diqqəti,



rayon rəhbərliyinin ciddi səyləri nəticəsində bu gün rayonun istər zahiri görkəmi, istərsə daxili keyfiyyət göstəriciləri tamamilə dəyişib. Bundan əlavə, rayonda əhalinin məşğulluq məsələsinə, eləcə də, insanların problemlərinin həllinə diqqət əhəmiyyətli dərəcədə artıb. Elə bu günlərdə Abşeron rayonunun 2016-cı ildə sosial-iqtisadi inkişafının yekunlarına dair yığıncaqda da bu məsələlər ətrafında danışıldı. Biz də bir qədər ətraflı bəhs edək.

## Abadlıq estafeti davam edir

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədovanın qeyd etdiyi kimi, ötən dövr ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində abadlıq-quruculuq işləri davam etdirilib, əhalinin maddi rifahı yaxşılaşdırılıb, sosial problemlərin həlli məsələləri diqqət mərkəzində saxlanılıb. Onun sözlərinə görə, 2016-cı ildə rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Hacı Zeynalabdın Tağıyev, Mehdi Hüseynzadə, Qalubiyyə, Füzuli, Səttar Bəhlulzadə, Yusif Məmmədəliyev küçələrində abadlaşdırma işləri həyata keçirilmiş, Misir Dostluq Parkı yenidən qurulmuşdur. Saray, Ceyranbatan, Mehdiabad qəsəbələrindəki parklar abadlaşdırılmış, şəhidlərin xatirəsinə abidə ucaldılmışdır. Masazır kəndində Heydər Əliyev və Zərifə Əliyeva, Aşağı Güzdək qəsəbəsində Həzi Cavadov, Mehdiabad qəsəbəsində Məhəmməd Əsədov, Novxanı kəndində Mehdi Hüseynzadə, Məmmədli kəndində Elçin Əliyev küçələrində abadlıq işləri görülmüşdür.

Yaşıllıqların qorunub saxlanılması və artırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmiş, ötən müddət ərzində rayonun yaşayış məntəqələrində park və yol kənarlarında 57 mindən çox ağac və gül kolları əkilmişdir. Yol infrastrukturunun yaxşılaşdılrılması məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 56.457 kubmetr qrabil tökülərək yayılmış, 142.593 kvadratmetr sahə asfaltlanmış, 13.684 paqometr səki daşı düzülmüş, piyada səkilərinə 6.282 kvadratmetr tomet döşənmişdir. Ötən il rayonun şəhər, qəsəbə və kəndlərində ümumilikdə 135 küçə daxili imkanlar hesabına əsaslı təmir olunmuşdur. Hökməli-Qobu yolunun yararsız hala düşmüş hissəsində yağış və qrunt sularının avtomobil yoluna axmasının qarşısının alınması məqsədilə yol kənarı boyunca 900 metr uzunluğunda beton suötürücü və plastik boru ilə drenaj xətləri çəkilmiş, yolun yararsız vəziyyətə düşmüş hissəsi əsaslı təmir edilərək asfalt örtük verilmişdir.

Bakı-Quba və Bakı-Şamaxı



magistral avtomobil yollarının Abşeron rayonu ərazisindən keçən hissələrində 4 yerdə yerüstü piyada keçidinin quraşdırılması işlərinə başlanılmışdır. Bunlardan biri artıq istifadəyə verilmiş, 3 keçidin inşası isə davam etdirilir. Yaxın günlərdə Mehdiabad-Fatmayı-Görədil, Mehdiabad-Digah-Məmmədli avtomobil yollarının təmiri işlərinə başlanılacaqdır. 2016-cı il ərzində rayon ərazisində 197 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 141 milyon manat investisiya yönəldilmişdir.

Ötən il rayonda 16 Mənzil Tikinti Kooperativi tərəfindən çoxmərtəbəli yaşayış binaları üzrə 285 min kvadmetrlik yaşayış fondunun tikintisi başa çatdırılaraq istismara qəbul edilmişdir. Həmçinin Xırdalan şəhərində 20 çoxmənzilli yaşayış binası təmir olunmuşdur.

## İşıq, su və qaz təchizatı yüksək səviyyədədir

Əhalinin sabit elektrik enerjisi ilə təminatı ilə bağlı yaşayış məntəqələrində 69 ədəd yeni transformator quraşdırılmış, 41-i əsaslı təmir olunmuş, 755 ədəd dayaq və 148 min metr naqil dəyişdirilmiş, yaşayış məntəqələrində 65 min metr uzunluqda "SİP" kabelləşməsi aparılmışdır. Masazır kəndində yeni 2 dövrəli hava xətti çəkilərək istismara verilmiş, "Mehdiabad-1" hava veriliş xəttinin üzərindən yükün bir hissəsi çıxarılaraq yeni inşa olunmuş Fatmayı yarımstansiyasına keçirilmişdir. Xırdalanda ikidövrəli yeraltı 2700 metr kabel yenisi ilə əvəz olunmuşdur. Hazırda Xırdalan şəhərindəki Əliağa Vahid yarımstansiyasından şəhərdə inşa olunan digər yarımstansiyaları əlaqələndirən 6 km uzunluğunda dairəvi yeraltı kabelin çəkilişi işləri həyata keçirilir. Ötən il Xırdalan şəhəri, Saray qəsəbəsi və Masazır kəndinin hər birində yeni 35 kilovoltluq yarımstansiya inşa olunmuş, Qobu qəsəbəsində isə 110 kilovoltluq yarımstansiyanın tikintisinə başlanılmışdır.

2016-cı ildə rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 13.980 paqometr uzunluqda yeni içməli su xətləri çəkilmiş, 4.576 paqometr uzunluqda korroziyaya uğramış xətt dəyişdirilmiş, 7.221 ədəd su sayğacı quraşdırılmış, eləcə də 3.760 paqometr uzunluqda kanalizasiya xətləri yenilənmişdir. Podratçı təşkilatlar tərəfindən Saray bağ massivi, Digah və Görədil ərazilərində layihə üzrə su boru xətləri istismara verilmiş, Digah qəsəbəsində 20 min kubmetr tutumu olan su anbarı və 1483 metr uzunluqda 700 millimetr diametrli boru xətti inşa edilərək istismara verilmişdir. Pirəkəşkül kəndinə



gedən içməli su xəttinin 2 kilometrlik hissəsi yeni borularla əvəz edilmiş, kəndin içməli su təminatı xeyli yaxşılaşmışdır. Aşağı Güzdək qəsəbəsində 2.600 metr su xətti çəkilmiş, yeni nasosxana tikilmişdir. Hökməli və Qobu qəsəbələrinə yeni içməli su xətti çəkilmişdir.

Rayonda əhalinin təbii qazla təchizatı məsələsi də diqqət mərkəzində saxlanılır. 2016-cı il ərzində 5.123 evə təbii qaz xətti çəkilərək sayğac quraşdırılmışdır. Xüsusilə Hökməli qəsəbəsinin mərkəzi hissəsində təbii qazın verilişi ilə bağlı uzun müddətdir davam edən problem aradan qaldırılmışdır. Qəsəbədə 1600-ə qədər ailənin təbii qaz xətti və ya sayğacı bərpa olunmuş, 500-ə yaxın yeni sayğac qoyulmuşdur.

## Sahibkarlığın inkişafı göz qabağındadır

Sahibkarlıq fəaliyyəti üçün yaradılmış əlverişli şəraitin nəticəsidir ki, 2016-cı ildə rayonda yüzlərlə insanın işlə təmin olunduğu Metal konstruksiyalar zavodu, "Araz" və "Bazarstor" supermarketlər şəbəkəsinin filialları, ət kəsimi və emalı, hədiyyəlik məmulatlar istehsalı müəssisələri, "Toyota" Abşeron Mərkəzi və digər iri sahibkarlıq obyektləri fəaliyyətə başlamışdır. 2016-cı il ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonda fəaliyyət göstərən sahibkarlara 49 investisiya layihəsi üçün 25 milyon 510 min manat həcmində güzəştli kredit verilmişdir. Yaradılacaq müəssisələrdə 1449 yeni iş yerinin açılması nəzərdə tutulur. Bu kreditlər hesabına Məmmədli kəndində 10 min tonluq soyuducu anbar, Pirəkəşkül kəndində illik 38 milyon ədəd damazlıq yumurta istehsal edəcək müəssisələr, Masazır, Məhəmmədi, Fatmayı, Pirəkəşkül kəndlərində 13 hektarlıq istixana kompleksi fəaliyyətə başlayacaqdır. Bu gün rayonda istixanaların ümumi sahəsi 334 hektarı ötmüşdür. Ötən ildən örtülü sahədə gül yetişdirilməsi işlərinə də başlanılmışdır ki, bu sahənin inkişafı da rayon icra hakimiyyətinin diqqət mərkəzində saxlanılır. Ölkə başçısının tapşırığına uyğun olaraq ötən il 195 hektar sahədə zeytun əkilmiş, hazırda Aşağı Güzdək ərazisində əlavə 330 hektar sahədə zeytun əkilməsi ilə bağlı işlər sürətlə davam etdirilir.

Bu gün qarşıya qoyulan ən mühüm vəzifələrdən biri də rayonlarda dotasiyalardan asılılığın minimuma endirilməsidir. Abşeron rayonu 2017-ci il də daxil olmaqla artıq altı ildir ki, dotasiya almadan yerli gəlirlər hesabına büdcənin formalaşdırılmasını təmin edir. Bu il isə Abşeron rayonu özünü maliyyələşdirməkdən əlavə, dövlət büdcəsinə 24 milyon manat vəsait ödəməyi nəzərdə tutulur.



Ötən il rayonda sənaye məhsulunun həcmi 118 milyon manata çatmışdır. İstehsal olunmuş sənaye məhsulunun 70 faizi qeyri-dövlət müəssisələrinin payına düşür. Həmin müəssisələrdə çalışan işçilərin orta aylıq əməkhaqqı 384 manat təşkil etmişdir.

Rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi xeyli artmışdır. Rayonun qəsəbə və kəndlərində əhali və fermer təsərrüfatlarında qaramalın sayı 23.274 başa, davarın sayı 132.884 başa, quşların sayı isə 1 milyon 188 min başa çatmışdır. Ötən dövr ərzində 2.326 ton ət, 47.388 ton süd, 2.857 sentner yun istehsal olunmuşdur. Yumurta istehsalı isə 203 milyon ədədə çatmışdır. Hesabat dövründə 44 min ton tərəvəz toplanmışdır ki, bunun da 41 min tonu istixanaların payına düşür.

## Sosial problemlərə diqqət artır

Abşeronda insana qayğı, onun problemlərinin həllinə diqqət həmişə ön plandadır. Bu istiqamətdə müxtəlif tədbirlər görülür. Son bir ildə Xırdalan, Ceyranbatan, Masazır, Novxanı, Mehdiabad, Digah, Qobu yaşayış məntəqələrində "ASAN xidmət"in 109 günlük səyyar fəaliyyətindən rayonun 15874 sakini istifadə etmişdir. Belə səyyar xidmət davam etməkdədir.

Hazırda rayon üzrə 2.489 ailəyə hər ay orta hesabla 152 manat olmaqla ünvanlı dövlət sosial yardımı ödənilir. Ünvanlı yardım alan hər bir ailəyə Heydər Əliyev Fondu tərəfindən də bayram sovqatı hədiyyə edilir. Rayonun şəhid, əlil və imkansız ailələrinə diqqət artırılır, RİH başçısı yanında büdcədənkənar inkişaf və bərpa fondundan və digər daxili imkanlar hesabına 2500 şəhid ailəsi, əlil və imkansıza 227 min manatlıq yardım göstərilmişdir. Rayonun Məmmədli kəndində şəhid Zöhrab Mustafazadənin evi təmir olunaraq, avadanlıqlarla təchiz edilmişdir. Ölkəmizin işğal olunmuş ərazilərindən olan və bu rayonda məskunlaşmış 39 min nəfərə yaxın məcburi köçkünün həyat şəraiti də daim diqqət mərkəzində saxlanılır.

Ötən il süni qiymət artımının qarşısının alınması məqsədilə də müvafiq tədbirlər həyata keçirilmiş, Xırdalan şəhərində kənd təsərrüfatı məhsullarının və rayonda fəaliyyət göstərən müəssisələrdə istehsal olunan ərzaq məhsullarının satış yarmarkası təşkil edilmişdir.

2016-cı ilin ən əlamətdar hadisələrindən biri valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunlar üçün Masazır kəndində 120 mənzilli yaşayış binasının açılışı və həmin tədbirdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı olmuşdur. Həmin tədbirdə 120 mənzilli daha bir binanın təməli qoyulmuşdur.

Rayon icra hakimiyyəti və onun struktur bölmələrinin fəaliyyətində vətəndaşların müraciətlərinə, təklif, ərizə və şikayətlərinə baxılması mühüm yer tutmuşdur. RİH-də müraciətləri doğuran səbəblər mütəmadi təhlil olunur, qaldırılan məsələlərin həlli ilə bağlı vətəndaşlara vaxtında və konkret cavablar verilir. Rayon sakinlərinin müraciətlərinə həssaslıqla yanaşılması, onların problemlərinin yerlərdə həlli hər bir idarə, müəssisə və təşkilat rəhbərinin bir nömrəli vəzifəsi hesab olunur.

## Təhsil və səhiyyə dinamik inkişaf yolundadır

2016-cı ildə rayonun təhsil müəssisələrinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradılması, infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Masazır kəndində Heydər Əliyev Fondunun dəstəyi ilə 800 şagird yerlik məktəb tikilib, inventar və avadanlıqlarla tam təchiz edilmiş və 7 oktyabr 2016-cı ildə respublikanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə açılışı olmuşdur. Bundan başqa, dövlət vəsaiti hesabına Xırdalan şəhərinin Mexdəstə yaşayış sahəsində, şəhərin 26-cı məhəlləsində, Hökməli qəsəbəsində və Novxanı kəndində dörd 6 qrupluq körpələr evi-uşaq bağçası istifadəyə verilmiş, Saray və Güzdək qəsəbələrində ümumtəhsil məktəbləri üçün əlavə sinif otaqları tikilmişdir. Aşağı Güzdək qəsəbəsində və Masazır kəndində 6 qrupluq körpələr evi-uşaq bağçasının tikintisi başa çatmışdır. Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbinin əsaslı təmiri, Masazır kəndində "İlin dörd fəsli" şirkəti tərəfindən körpələr evi-uşaq bağçasının və "Qurtuluş 93" şirkəti tərəfindən 1200 şagird yerlik məktəbin tikintisi işləri davam etdirilir. Orta məktəbi bitirmiş məzunlardan 1007 nəfəri və ya 69,2 faizi tələbə adını qazanmışdır. Hesabat dövründə rayonun 2 müəllimi Prezidentin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Ötən dövr ərzində əhaliyə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, 2016-cı ilin fevral ayından may ayının 15-dək rayonda 127,427 sakin tibbi müayinədən keçirilmişdir.

## Gənclərin mənəvi tərbiyəsi

Qeyd etmək lazımdır ki, ötən il rayonda dövlət gənclər siyasətinin həyata keçirilməsi, idmanın kütləviliyin təmin edilməsi sahəsində də ciddi iş aparılmışdır. Qobu qəsəbəsində "Cavanşir" idman sağlamlıq klubu gənclərin istifadəsinə verilmişdir.

Bir neçə il bundan öncə Prezidentin sərəncamı əsasında ayrılmış vəsait hesabına Xırdalan şəhərində Olimpiya İdman Kompleksinin inşasına başlanılmışdır. 2016-cı ildə rayon gəncləri 31 respublika və 21 beynəlxalq tədbirdə iştirak etmişlər. İdman yarışlarında gənclərimiz 164 medal, o cümlədən 87 qızıl medal qazanmış, bunlardan da 115-i respublika yarışlarında, 49-u isə dünyanın 11 ölkəsində keçirilən beynəlxalq yarışlarda əldə edilmişdir. Xüsusilə Braziliyada keçirilən Yay Olimpiya Oyunlarında güləşçi Hacı Əliyevin qazandığı bürünc medal Abşeronda ilk olimpiya medalı kimi tarixə düşmüşdür.

Gənclərdə hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi işi də rayon icra hakimiyyəti başçısı aparatının daim diqqət mərkəzində saxlanılır. 5 aprel 2016-cı il tarixdə rayon Mədəniyyət evində aprel döyüşlərində qazanılmış tarixi qələbə münasibətilə keçirilən tədbirdə abşeronlular Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini, ərazi bütövlüyümüzün təmin edilməsi üçün hər an səfərbərliyə hazır olduqlarını bir daha bəyan etmişlər.

…Abşeron rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı bu ilk yazım deyil. Həmişə bu barədə, necə deyərlər, qələmimin gücü yetdiyi qədər yazmağa çalışmışam. Ola bilər nəyisə tam şəkildə çatdırmağa gücüm çatmayıb. Ancaq həmişə bir məsələ barədə özümü çox rahat hiss etmişəm, heç nəyi artırmamışam, əksinə, rəhmətlik Sabir demişkən, hələ gördüklərimin beşdə birini yazmamışam. Ancaq bu gün Abşeronda çox böyük işlər görülür, nailiyyətlər qazanılır. On illik estafet uğurla davam etdirilir.



***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***